

# Dünyaca məşhur alim Əziz Sancardan 3 yaşlı Xədicənin təhsilinə dəstək

Kimya üzrə Nobel mükafatçısı, Türkiyə əsilli dünyaca məşhur alim Əziz Sancar Ermənistanın oktyabrın 17-də Gəncəyə raket atəşi nəticəsində hər iki valideynini və bacısını itirmiş 3 yaşlı Xədicə Şahnəzərlinin gələcək təhsil xərclərinin ödənilməsi məqsədilə xüsusi olaraq yaradılmış bank hesabına əhəmiyyətli miqdarda vəsait köçürüb.

Əziz Sancar müharibədən əziyyət çəkmiş bu kimi uşaqların yüksək səviyyədə təhsil almaları üçün müvafiq təhsil fondlarının yaradılmasının faydalı ola biləcəyini vurğulayıb.



# Təhsil naziri Emin Əmrullayev Əziz Sancara minnətdarlıq etdi

Dünyaca məşhur alim, Kimya üzrə #Nobel mükafatçısı Əziz Sancarın (#AzizSancar) 3 yaşlı Xədicənin gələcək təhsilinə göstərdiyi dəstək bizi sevindirdi.

Göstərdiyi bu təşəbbüsə və dəstəyə görə çox hörmətli Əziz Sancara bütün təhsil ictimaiyyəti adından dərin təşəkkür edirik. Xədicənin gələcək təhsili üçün atılan bu addım, eyni zamanda Qarabağla bağlı Azərbaycanın haqq işinə də böyük dəstəkdir.

